# Fövqəladə Hallar Nazirliyi işçilərinin peşə bayramında

2005-ci ilin dekabr ayının 16-da yaranan Fövqəladə Hallar Nazirliyi 8 il ərzində şərəfli bir yol keçmişdir. Bu qısa zaman kəsiyində nazirlik və onun tabeçiliyindəki qurumlar yüksək səviyyəli kadrlarla, maddi-texniki baza ilə xeyli möhkəmləndirilmiş və müasir tələblər səviyyəsinə gətirilmişdir.

Şimal-qərb Regional Mərkəzinin kollektivi qəbələlilərin daimi ziyarətgahına çevrilmiş ümummilli lider Heydər Əliyevin abidəsi önünə gəlmiş və tər qərənfillər düzərək dahi şəxsiyyətin əziz xatirəsini yad etmişlər.

Tədbirdə rayon icra hakimiyyəti başçısının birinci müavini Abil Ağasəfov iştirak etmişdir.

**Oqtay MƏMMƏDOV.**






# Məktəbdə anım günü

Ötən həftə rayonun idarə və müəssisələrində, təhsil və mədəniyyət ocaqlarında Heydər Əliyevin anım gününə həsr olunmuş müxtəlif səpkili tədbirlər keçirilmişdir.

Azərbaycan Respublikasının Prezidenti demişdir: "Tarixdə liderin əhəmiyyəti və rolu onun xalq qarşısındakı xidmətləri ilə ölçülür. Heydər Əliyevin siyasi fəaliyyəti nəticəsində Azərbaycan dünyanın ən inkişaf etmiş bölgələrindən birinə çevrilmişdir". Bu da həqiqətdir ki, çağdaş Azərbaycanda iqtisadiyyatın, elm, təhsil və mədəniyyətin dirçəlişi, eləcə də dövlət müstəqilliyinin inkişafı, qısa zaman kəsiyində Azərbaycanın beynəlxalq aləmdə böyük nüfuz qazanması məhz ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır.

Dekabrın 12-də ümummilli lider Heydər Əliyevin anım gününü bütün respublika qeyd etdi. Ulu öndərə olan hörmət və ehtiramın nümunəsi olaraq ümumtəhsil məktəblərimizdə də geniş tədbirlər planı hazırlanaraq həyata keçirildi. Qəbələ şəhər 2 nömrəli tam orta məktəbində düzənlənən tədbir də ümummillli liderə olan sonsuz məhəbbəti, dərin hörməti bir daha göz önünə gətirdi.

Tədbirdə məktəbin müəllimləri, şagirdləri, rayon təhsil şöbəsi metodkabinetinin müdiri Arifə Bayramova, metodist Tərbiyə İsayeva iştirak edirdi.

Tədbiri giriş sözü ilə məktəbin direktoru Təranə Səlimova açdı. O bildirdi ki, Heydər Əliyev Tanrının Azərbaycana bəxş etdiyi tarixi bir şəxsiyyətdir. Elə bir şəxsiyyət ki, bütün əqli və fiziki gücünü, fikri istedadını, bütün qüvvə və bacarığını öz doğma məmləkətinə həsr etmişdir. O, liderə xas olan bütün keyfiyyətlərə malik rəhbər kimi uzaqgörən və təcrübəliydi. Zamanın və dünyanın qlobal sirlərinə bələd idi. Eyni zamanda dost kimi mərd, ləyaqətli ata kimi mehriban və xeyirxah idi. Bir sözlə, sözün əsl mənasında hər kəsin örnək götürəcəyi bir insan idi. Müstəqil Azərbaycan dövləti bu böyük şəxsiyyətin sağlığında özünə ucaltdığı ən möhtəşəm abidədir. Bu abidə Heydər Əliyev dühasının şah əsəridir.

Qəbələ RTŞ metodkabinetinin müdiri Arifə Bayramova isə çıxışında ulu öndər və Azərbaycan təhsili mövzusunda fikirlərini tədbir iştirakçıları ilə paylaşdı. O, çıxışına davam edərək Heydər Əliyevin təhsil haqqında söylədiyi fikirləri pedaqoji fikir tariximizin nadir inciləri kimi qiymətləndirdi. Heydər Əliyev dövrünü Azərbaycan xalqının qızıl dövrü kimi səciyyələndirdi.

Məktəbin tarix müəllimi Gülər Müzəffərova ulu öndərin keçdiyi şərəfli tarixi yoldan və Azərbaycan xalqı üçün göstərdiyi misilsiz xidmətlərindən danışdı. Məktəbin şagirdlərinin təqdim etdiyi ədəbi-bədii kompozisiya tədbirə xüsusi bir rəng qatdı.

Ulu öndərə sevgidən yoğrulan poeziya çələngini təqdim edən şagirdlərin hər birinin gözlərində ümummilli lider şəxsiyyətinə sevgi, hörmət oxunurdu.

Tədbirin sonunda Heydər Əliyevin həyat və fəaliyyətini əks etdirən film nümayiş etdirildi.

**Vüsalə NAMƏTOVA,**
**Qəbələ şəhər 2 nömrəli tam orta məktəbin müəllimi.**

# 2013: Uğurlarımız, nailiyyətlərimiz, xoş gələcəyə doğru addımlar

***«Qəbələnin timsalında biz Azərbaycan bölgələrinin uğurlu inkişafını görürük. Burada görülən işlər yüksək qiymətə, təqdirə layiqdir. Mən bu işləri alqışlayıram».***

***İlham ƏLİYEV.***

XXI əsrin daha bir ili—2013-cü illə vidalaşmaq üzrəyik. Bu günlərdə hər kəs dönüb arxaya baxır, ötüb-keçən günləri xatırlayır, yaddaşını bir daha təzələyir. Yaddaşını təzələyir ki, bu bir ildə nə qazanıb, nə itirib, hansı problemlərin həllinə vaxtı çatmayıb, yaxud imkanı olmayıb. Yəqin ki, bu suallar çoxlarının düşüncəsinə hakim kəsilib. Bizcə ailə başçıları, iş adamları, vəzifə sahibləri, ayrı-ayrı kollektivlər bu suallar ətrafında daha çox düşünür, buraxılan nöqsanları qarşıdakı yeni ildə aradan qaldırmaq, uğurları isə daha da möhkəmləndirmək üçün yollar axtarıb-arayır.

Bu məqsədlə jurnalist axtarış-araması ilə biz də rayon «səyahətinə» çıxdıq. Bu səyahətlə ilk olaraq Azərbaycan Respublikasının möhtərəm Prezidenti İlham Əliyevin bir ildə iki dəfə Qəbələyə rəsmi səfəri diqqətimizi cəlb etdi. Əlbəttə, Qəbələ üçün, Qəbələ əhalisi üçün ölkə başçısının cəmi 5 ay ərzində ucqar bir dağ rayonuna iki dəfə səfəri (birinci səfəri fevral ayının 28-də, ikinci səfəri avqust ayının 14-də olmuşdur) çox maraq doğuran, həm də əlamətdar hadisə idi. Xatırladaq ki, cənab İlham Əliyev ölkə Prezidenti seçildikdən sonra 10-cu dəfə idi ki, Qəbələdə rəsmi səfərdə olurdu. Fevral ayında səfəri zamanı 5 ən mühüm obyektin açılışını etmiş, 2 obyektdə isə tikinti-quraşdırma işlərinin gedişi ilə tanış olmuşdur. Bunlara misal olaraq 400 yerlik Mədəniyyət Mərkəzini, Qəbələ şəhər məscidini, Atıcılıq Klubunun birinci mərhələsini, Qəbələ heyvandarlıq-südçülük kompleksini, Qəbələ «Aspi-aqro» üzüm emalı zavodunu, Qəbələ Konqres mərkəzini, «Tufan» Dağ Xizək yay-qış istirahət kompleksini misal göstərmək olar. Bunlarla Yanaşı Heydər Əliyev parkı xeyli genişləndirilmiş, burada əhalinin hər cür istirahəti üçün geniş imkanlar yaradılmışdır.

Cənab Prezident avqust ayının 14-də ikinci dəfə Qəbələyə səfəri çərçivəsində 4 mühüm obyektin açılışında iştirak etmişdir. Bu obyektlər Heydər Əliyevin adını daşıyan Konqres Mərkəzi, «Aqro Kompleks Qəbələ» MMC-nin aqrar-sənaye kompleksi «Qafqaz Karvansaray» otel kompleksi, Qaraməryəm—İsmayıllı—Şəki avtomobil yolunun Qəbələ—Oğuz hissəsi olmuşdur. Hər iki səfəri çərçivəsində cənab Prezident Qəbələ ictimaiyyəti ilə görüşmüş, rayonun, həmçinin Qəbələ şəhərinin sosial-iqtisadi inkişafı ilə bağlı öz təkliflərini və tövsiyələrini vermişdir.

Görüşlər zamanı qəbələlilər cənab Prezidentə bildirmişlər ki, burada görülən tikinti-abadlıq, quruculuq işləri onlarda çox böyük qurur və fərəh hissi doğurur. Çünki Qəbələ rayonunun, Qəbələ şəhərinin son 10 ildə sürətli inkişafı, onun beynəlxalq turizm, mədəniyyət və incəsənət mərkəzinə çevrilməsi Heydər Əliyev təşəbbüslərinin, Heydər Əliyevlə başlanan sosial-qtisadi islahatların, cənab Prezident İlham Əliyev tərəfindən bu təşəbbüslərin və islahatların qətiyyətlə, möhkəm iradə və təşkilatçılıqla həyata keçirilməsinin bəhrəsidir. Bu işlərə görə hər bir qəbələli cənab Prezidentə minnətdardır.

Görüşlərdə ölkə başçısı geniş çıxışlar etmiş, görülən işlərin bundan sonra da davam etdiriləcəyini və Azərbaycan xalqının xoşbəxt cələcəyi naminə əlindən gələni əsirgəməyəcəyini söyləmişdir. O demişdir: «Qəbələnin timsalında biz Azərbaycan bölgələrinin uğurlu inkişafını görürük. Burada görülən işlər yüksək qiymətə, təqdirə layiqdir. Mən bu işləri alqışlayıram».

Cənab Prezident çıxışlarında rayonda sənayenin, aqrar bölmənin də sürətlə inkişafını xüsusi olaraq qeyd edərək yeni iş yerlərinin, yeni müəssisələrin, zavodların, fabriklərin açılması, bu zavod və fabriklərin müxtəlif sahələri əhatə etdiyini vurğulamışdır. İstehsal olunan məhsulun, sosial obyektlərin, yeni iş yerlərinin artımı həqiqətən ürək açandır. Məsələn, bu ilin 9 ayında bütün bölmələr üzrə 212 milyon 735 min manatlıq məhsul istehsal olunmuşdur. Bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 2,5 faiz çoxdur. İlin son hesabatında bu göstəricinin daha yüksək olması gözlənilir. Sənaye müəssisələrində işləyənlərin orta aylıq əməkhaqqı 366 manat təşkil etməklə ötən ilin müvafiq dövrünə görə artım 21 faizdən yüksəkdir. İş yerlərinin sayı isə sözü gedən dövrdə 524-ə çatmışdır. Ümumiyyətlə, 2003-cü ildən bu ilin oktyabr ayının 1-dək rayonda 11.467 yeni iş yeri açılmışdır. Bu iş yerlərinin 9,414-ü daimi iş yeridir.

**(Ardı 5-ci səhifədə).**